# Açıq dərsin icmalı

## Mövzu: Faiz

**Standart:**

***1.2.5. Faizə aid sadə məsələləri həll edir***

**Təlim nəticəsi:**

- ***Faizə aid sadə məsələləri həll edir***

**İş forması : Cütlərlə iş, qruplarla iş**

**İş üsulu: Beyin həmləsi, müzakirə**

**Resurslar: Dərslik, iş vərəqləri, təqdimat**

**Motivasiya:**

Faiz sözünə harada rast gəlmisiniz?

50%, 25%, 75% endirim nə qədərdir?

¼, ½ , ¾ hissə endirim neçə faizdir?

1. Nöqtələrin yerinə lazımi ifadəni yazın:
a) Ədədin .............................. faiz deyilir.
b) onluq kəsri faizə çevirmək üçün onu 100-ə ...................................lazımdır.
c) faiz göstərən ədədi onluq kəsrə çevirmək üçün onu 100-ə................................
ç) ədədin faizini tapmaq üçün onu .................. vurub, ................bölmək lazımdır.

**İnformasiya mübadiləsi:**

Şagirdlərin 5-ci sinifdə keçdiklərini yada salmaq məqsədi ilə cütlərlə iş tapşırıqları verirəm. Verilən tapşırıqlarda öz əksini tapır:

- Onluq kəsrdən faizə çevirmə
- Faizdən onluq kəsrə çevirmə
- Adi kəsrdən faizə çevirmə
- Şəklin 50% -nin rənglənməsi

| | |
|---|---|
| **I səviyyə** | Faizi adi və onluq kəsrə çətinliklə çevirir. |
| **II səviyyə** | Faizi müəllimin istiqaməti ilə adi və onluq kəsrə çevirir |
| **III səviyyə** | Faizi adi və onluq kəsrə sərbəst çevirir. |
| **IV səviyyə** | Faizi kəsrlə ifadə edərkən əlverişli üsullardan istifadə edir. |

**İnformasiya müzakirəsi: Çevirmə qaydaları təkrarlanır.** Daha sonra üzərində faizə aid məsələlər olan iş vərəqləri qruplarla müzakizə olunur.

**Ümumiləşdirmə və nəticə:**

Qruplarla işlənilən məsələlər müzakirə olunur.

**Yaradıcı tətbiqetmə:** Sonra Dərslikdə səh 64 tapşırıq 9 həll olunur.

**Ev tapşırığı: Dərslik səh 64 çal 2, 3**

**Refleksiya : Bilmirdim öyrənmədim – qırmızı, bilmirdim öyrəndim – sarı, bilirdim möhkəmlətdim – yaşıl plastikləri qarşılarına qoymaqla dərsi qiymətləndirirlər.**

**Sonda şagirdləri qiymətləndirirəm.**

## Qiymətləndirmə

| Səviyyələr | | | |
|---|---|---|---|
| **I** | **II** | **III** | **IV** |
| Faizi adi və onluq kəsrə çətinliklə çevirir. | Faizi müəllimin istiqaməti ilə adi və onluq kəsrə çevirir. | Faizi adi və onluq kəsrə sərbəst çevirir. | Faizi kəsrlə ifadə edərkən əlverişli üsullardan istifadə edir. |